international alert

# Sülhə baxış

## Dağlıq Qarabağ münaqişəsinə baxışların analizi



AVROPA BIRLIYIN TƏŞƏBBÜSÜ

Sülh
Bizim Öz
Əlimizdədir

## International Alert haqqında

International Alert münaqişələrdən əziyyət çəkmiş əhali ilə dayanıqlı sülhün qurulması naminə çalışır. Biz əminik ki, sülhü yalnız birgə səylərlə bərqərar etmək olar. Biz münaqişələrin köklü səbəblərinin aradan qaldırılmasına kömək edir, qarşıdurma nəticəsində ayrı düşmüş insanların və cəmiyyətlərin yaxınlaşmasına kömək edirik. Sülhün qurulması naminə bizim səylərimiz bütün səviyyələrdə - yerli icmalardan tutmuş, hökumət strukturlarına qədər – işi özündə ehtiva edir.

Sülhün bərqərar olması yalnız müqavilələrin imzalanmasından və qarşı duran tərəflərin tərksilah olunmasından asılı deyil, həm də cəmiyyətlərin dinc – yanaşı yaşamasından, onların qarşıya çıxan ziddiyyətləri zorakılığa əl atmadan həll edə bilmək bacarığından asılıdır. Biz buna əminik ki, hər kəs dinc gələcəyin qurulmasına öz töhfəsini verə bilər.

**www.international-alert.org**

**© International Alert 2018**
Bütün hüquqları qorunur. Bu nəşrin heç bir hissəsi müəllifin adı və mənbəyi göstərilmədən elektron, mexaniki, fotosurətçıxartma, yazı vasitələri və istənilən digər saxlanma və məlumatın götürülməsi yolları ilə nəşr edilə və ötürülə bilməz

Maket: D. R. ink

Üz qabığında şəkil: © Bertrand Rieger/Hemis/Alamy

# Sülhə baxış

## Dağlıq Qarabağ münaqişəsinə baxışların analizi

Larisa Sotiyeva, Arda İnal-İpa, Cana Cavaxişvili və Liana Kvarçeliya ilə

**Oktyabr 2018**

# Minnətdarlıq

*International Alert* bu tədqiqatın aparılmasında, hazırlanmasında və analizində iştirak etmiş hamıya minnətdarlığını bildirir. Yerli tərəfdaşlarımıza – Anar Əyyubov, Əvəz Həsənov, Geqam Baqdasaryan, Marqarita Axvlediani, Mark Qriqoryan, Masis Mailyan, Mikael Zolyan və Şahin Rzayevə, metodologiyanın hazırlanmasına və məlumatların analizinə görə ayrıca minnətdarlığımızı bildiririk. Biz həmçinin məlumatların toplanmasına görə Alvard Sarkisyan, Anuş Qazaryan, Bəxtiyar Aslanov, Davit Ohanyan, Məhərrəm Zeynalov, Narine Aqalyan, Rafıq Muradov, Sevinc Səmədzadə, Vəfa Zeynalova, Zoya Mailyan da daxil olmaqla gənc tədqiqatçılar qrupuna minnətdarıq.

Bu nəşr Avropa İttifaqının "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli naminə Avropa tərəfdaşlığı (EPNK)" təşəbbüsü çərçivəsində həyata keçirilib. International Alert həmçinin aşağıdakı strateji sponsorlara dəstəyinə görə təşəkkür edir: Niderland Xarici İşlər Nazirliyi, İrlandiya Xarici İşlər və Ticarət Nazirliyi və İsveç İnkişaf Sahəsində Beynəlxalq Əməkdaşlıq Agentliyi.

Donorlarımızın siyasi nöqteyi-nəzərini əks etdirməyən bu nəşrin içindəkilərə görə məsuliyyəti yalnız International Alert daşıyır.

# Mündəricat

**1. Giriş** **4**

**2. Metodologiya** **5**

**3. İdentiklik məsələsi** **6**

Münaqişə identikliyin ayrılmaz hissəsi kimi 6

Dehumanizasiya paradoksu 6

**4. Vəzifə və öhdəliklərin bölgüsü** **8**

Gender və nəsil fərqləri 8

Mərkəzlə əyalət arasında fərq 9

Qəbul edən tərəflə yer dəyişən şəxslər arasında fərq 10

Hakimiyyətin və üçüncü tərəflərin rolu 10

**5. Münaqişə, sülh və güzəşt** **12**

Miflər və təbliğat 12

Tələbatların yalançı təminatı 13

Sülh və güzəştin terminologiyası 14

**6. Tövsiyələr** **15**

İdentiklik məsələləri üzərində iş 15

Müəyyən məqsədli qruplarla iş 15

Diskurs üzərində iş 16

Müxtəlif dialoq formalarının inkişafı üzrə iş 17



© JAMnews/Hakob Hovhannisyan

# 1. Giriş

1990-cı illərin əvvəllərində başlamış Dağlıq Qarabağ münaqişəsi keçmiş SSRİ ərazisində ən təhlükəli və proqnozlaşdırılması çətin olan münaqişələrdən biri olaraq qalır. Münaqişə “dondurulmuş” olsa da mübahisəli Zonada beynəlxalq sərhəd və təmas xətti boyunca mülki şəxslər və hərbçilər həlak olmaqda davam edir. Bundan savayı, 2016-cı ilin aprelindəki qanlı toqquşmalar bir daha bütün dünyaya tərəflərin münaqişənin “həlli” vasitəsi kimi hərbi qarşıdurmaya hazır olduqlarını göstərdi.

Bu münaqişə üzrə müxtəlif səviyyələrdə sülhməramlı təşəbbüslərdə iyirmi beş ildən çox təcrübəyə malik olan International Alert,  müharibəyə mümkün alternativləri, münaqişənin cəmiyyətlərin özlərindən gələn transformasiya yollarını, həmçinin hazırda tərəflərin və xarici vasitəçilərin gündəmində duran imkan və yanaşmaları özündə əks etdirən  bu tədqiqatı həyata keçirməyə cəhd edib.

Tədqiqatların nəticələri münaqişəyə aid olan rəngarəng və geniş yayılmış hipotezləri təsdiq edir. Bununla yanaşı Ermənistanda, Azərbaycanda və Dağlıq Qarabağda yaşayan insanlarda, eyni zamanda xarici vasitəçilərdə münaqişəyə münasibəti formalaşdıran bir sıra stereotiplərin inkarına səbəb olur. Tədqiqatın nəticələri göstərir ki, hər üç cəmiyyəti bir sıra ümumi tendensiyalar birləşdirsə də, eyni zamanda münaqişə ətrafında problemlərin bir sıra aspektlərinə aid ciddi fərqlər mövcuddur.

Biz ümid edirik ki, bu işdə formalaşdırılmış nəticələr və tövsiyələr münaqişənin bütün tərəfləri, eyni zamanda sülh yolu ilə həllin axtarışı prosesinə cəlb edilmiş xarici aktyorlar üçün faydalı olacaq.

Biz bu tədqiqatın nəticələrinin geniş şəkildə yayılmasını planlaşdırırıq və ümid edirik ki, onlar insanları düşünmək və analiz etməyə, o cümlədən də münaqişəyə cəlb olunmuş tərəflərin özünəməxsus ideyalarını paylaşmağa həvəsləndirəcək qidaya çevriləcəkdir. Bu isə nəticə etibarı ilə orada yaşayan insanların dinc həyatının təmin olunması üçün praktiki addımların atılmasına imkan yaradacaqdır.

# 2. Metodologiya

*International Alert* regional ekspertlər qrupu ilə birgə üç cəmiyyətin daxilindəki müxtəlif sosial qrupların nümayəndələri ilə dərinləşdirilmiş, yarıstrukturlaşdırılmış müsahibələrə əsaslanan keyfiyyətli tədqiqat metodologiyası hazırlayıb. Bu metodlogiyanın hazırlanmasında, münaqişəyə görə verilmiş qurbanları nəzərə alaraq sülhün dəyərini dərk edə bilmə prizması tətbiq olunub. Tədqiqat zamanı respondentlərdən xahiş olunub ki, öz təcrübələrinə əsaslanaraq münaqişənin transformasiyası ilə bağlı müxtəlif baxışlara fikir bildirsinlər. Onlara müharibə olmayacağı təqdirdə şəxsi həyatlarının və ətrafdakıların həyatlarının necə ola biləcəyi barədə düşünməyə, həmçinin sülhün bərqərar edilməsi üçün onların şəxsən hansı addımları ata biləcəklərini nəzərdən keçirmələrinə şərait yaradılıb.

Bu metodologiya irəliyə doğru atılacaq addımları müəyyənləşdirməyə və yaşanmış talelərin gələcək nəsillərə ötürülməsinin qarşısını almağa imkan yaradır. Həmçinin, metodologiya ayrı-ayrı vətəndaşların şəxsi fikirlərinin bu cür qiymətləndirilməsi və analizi bizə ictimai potensialı və hər üç cəmiyyətdə münaqişənin sülh yolu ilə tənzimlənməsinin mümkünlüyünü aşkarlamağa kömək edən alətə çevrildi.

Bu metodologiyadan istifadə münaqişənin tənzimlənməsinə aidiyyatı olan məsələlərdə əksər hallarda diqqətdən kənarda qalan sıravi insanların mövqelərini toplamağa imkan verdi. Biz onların ümidlərini, qorxularını və gələcəyə dair planlarını buna həmin adamların şəxsi təcrübəsi perspektivindən baxmaqla anlamağa çalışırdıq. Bu cür sırf şəxsi hekayələrin analizi bizə imkan verdi ki, münaqişənin onda iştirak edən bütün tərəflərə təsiri səviyyəsini ətraflı öyrənək, eyni zamanda münaqişənin bundan sonrakı transformasiyasına potensial olaraq təsir edən sahələri təyin edək. Deyilənlərdən əlavə, bu tədqiqat sıravi insanlara öz münaqişəsi haqqında mülahizə yürütmək şansı verdi ki, bu da öz növbəsində onlara fikirlərinin önəmli olmasını hiss etmək imkanı yaratdı. Analiz ekspertlər, o cümlədən psixoloqlar komandası tərəfindən aparılıb ki, bu da bizə fərdlər və onların mühiti arasında münasibət amillərini anlamağa şərait yaratdı.

Yuxarıda göstərilən metodologiyanın istifadəsi məqsədilə *International Alert* təşkilatı regiondan gənc tədqiqatçılar qrupu yaradıb. Birgə tədris prosesi bu insanların hər birinə "digər tərəf"-in nümayəndəsini görmək kimi unikal imkan yaratdı. Çünki, bu onların bir çoxu üçün ilk görüş idi. Sülhməramlı kimi fəaliyyətlərinə yenicə başlayan bu yeniyetmə oğlan və qızlar həm paytaxtlar, həm də digər şəhərlər, münaqişə zonasında təmas xətti boyunca kənd yaşayış məntəqələri, həmçinin ərazi daxilində yerlərini dəyişmiş şəxslərin (DYŞ) kompakt yaşadığı yerlər olmaqla 41 coğrafi məkanda 110 sorğu keçiriblər. Mövqe və qiymətləndirmələrin inklüziv seçimini təmin etməkdən ötrü, biz sorğusu keçirilənlər arasında gender, sosial və yaş balansını səylə maksimal dərəcədə qorumağa çalışmışıq.

Tədqiqatçılar məlumatları toplayarkən bir sıra müxtəlif növ problemlərlə qarşılaşmalı olublar. Mövzunun özü siyasi nöqteyi-nəzərdən həssas olması ilə seçilir. Bundan əlavə, nəzərə alın ki, özləri də qeyri-müəyyən şəraitdə yaşadıqları üçün, tədqiqatçıların daxili psixoloji vəziyyəti həm prosesdə, həm də tədqiqatın nəticələrində öz əksini tapa bilər. Hər bir müsahibəni tədqiqatçılar şəxsi şərhləri ilə müşayiət edirdilər ki, bu da analiz mərhələsində onların öz travmatik təcrübəsinin topladıqları məlumata təsirinin səviyyəsini qiymətləndirməyə imkan verdi. Yuxarıda deyilənlərə və bəzi məsələlərdə ziddiyyətlərin olmasına baxmayaraq, hər üç cəmiyyət müəyyən düşüncə çevikliyi və mənfidə müsbəti görmək bacarığı nümayiş etdirdi. Bu tədqiqatda yüksək emosionallıq səviyyəsi və münaqişənin adi insanların həyatına təsiri haqqında dərin düşüncələrlə fərqlənən nəhəng məlumat massivi toplanıb.

Yekun olaraq qeyd etməyi vacib bilirik ki, sorğuları 2017-ci ilin sonlarında aparmışıq, əldə olunmuş məlumatların analizi isə 2018-ci ilin ilk yarısında həyata keçirilib. Buna görə də, 2018-ci ilin aprelində Ermənsitanın siyasi həyatında baş vermiş hadisələr tədqiqatın nəticələrinə, çox güman ki, birbaşa təsir etməsələr də, onlar tövsiyələrin formalaşdırılması prosesində tərəfimizdən nəzərə alınıb.

# 3. İdentiklik məsələsi

«Həyatımın münaqişəsiz necə ola biləcəyini heç fikirləşməmişəm, çünki o mövcuddur. [...] Bu suala cavab vermək ağılsızlıqdır, belə ki, bu başdan ayağa nəzəriyyə olardı».

«Mən müharibə vaxtı anadan olmuşam, müstəqillik nəslinə aidəm və artıq həyatımı münaqişəsiz təsəvvür etmirəm. Atam müharibə vaxtı hərbçi olub və uşaqlıqdan üzərimdə hiss etmişəm».

«Ya biz birdəfəlik ölməliyik, ya da torpaqlarımızı qaytarıb dinclik tapmalıyıq...»

## Münaqişə identikliyin ayrılmaz hissəsi kimi

Mövcud olduğu uzun illər ərzində Dağlıq Qarabağ münaqişəsi insanlara elə dərin təsir edib ki, bu onların öz identikliklərinin dərininə tam inteqrasiya olunub. İnsanlar özlərini və həyatlarını münaqişədən ayrı qəbul edə bilmirlər. Başqa sözlə, münaqişə onlar üçün gündəlik reallığa çevrilib. Öz identikliyinə yenidən baxmaq və onu tənqidi tərəfdən dərk etmək mürəkkəb və ağrılı prosesdir. Respondentlərin əksəriyyətinin münaqişənin onlara təsir etmədiyini deməsinin səbəbləri də bununla bağlıdır.

Reallıqda bu tədqiqat nümayiş etdirir ki, insanlar öz həyatlarını münaqişədən keçirməklə, münaqişə ətrafında və münaqişə ilə planlaşdırırlar. Qeyd etmək maraqlıdır ki, müxtəlif cəmiyyətlərdə öz həyatının planlaşdırılmasına münasibət fərqlidir. Məsələn, Ermənistan və Azərbaycan sakinləri qeyd edirlər ki, onlar üçün uzunmüddətli perspektivdə gələcəklərini planlaşdırmaq çətindir. Bunun səbəbi isə o ola bilər ki, insanlar "Köməksizlik vərdişi" sisteminə uyğun yaşayırlar. Psixoloqlar bunu keçmiş mənfi təcrübənin insanları onların vəziyyətə nəzarət etmədiklərinə inandırması ilə şərtlənən ruhi vəziyyət kimi dəyərləndirirlər ki, bu səbəbdən onlar vəziyyətə nəzarət etməyə cəhd də etmirlər. Bunun əksinə, Dağlıq Qarabağda iddia edirlər ki, həyatlarını uzun illər sonraya planlaşdıra bilirlər.

Bu cür yanaşma psixoloji adaptasiya mexanizmi ilə izah olunursa da, hər halda ciddi risklər yaradır. Belə ki, fərdlər yaranmış vəziyyəti normallıq kimi qəbul etdikləri üçün, şüuraltı olaraq münaqişənin tənzimlənməsinin istənilən təzahürünə müqavimət nümayiş etdirə bilərlər.

## Dehumanizasiya paradoksu

Münaqişənin "normallaşması" ilk növbədə onun reallığında yaşamaq məcburiyyətində olan insanların dehumanizasiyasına gətirib çıxarıb. Dehumanizasiya fenomeni hər üç cəmiyyətdə qədim tarixə malikdir, lakin hər birində özünəməxsusdur. Dehumanizasiyada fərdin şəxsi tarixi silinir, sosial qrupun mənfəəti naminə hər bir həyatın unikallığının və qiymətinin dərki dəyərdən düşür.

Münaqişə mifləşdiyi an dehumanizasiya tətiyi işə düşür və bu an münaqişə sonsuz və idarə olunabilməyən bir axına çevrilir. Münaqişənin miqyası ilə müqayisədə şəxsiyyət dəyərdən düşür, insan görünməz, əhəmiyyətsiz olur, hətta ölüm də "vacib" münaqişəyə görə mümkün haqq kimi qəbul edilməyə başlayır. Hər bir ayrılıqda insan həyatının qiyməti


© JAMnews/Knar Babayan

insanların diqqət mərkəzi qələbə, yaxud münaqişədə məğlubiyyət mövzusuna doğru yönəldikcə aşağı düşməyə başlayır.

"Başqaları"nın dehumanizasiyası münaqişə vaxtı yayılmış qoruma mexanizmidir ki, bu kontekstdə o həm də sovet düşüncə tərzini əks etdirir: dövlət məqsədləri birinci plandadır, vətəndaşlar isə ona çatmaq üçün vasitədir. Kollektiv fikrin fərdi mövqeyə nisbətdə üstünlük təşkil etməsi şəxsi fikrin qiymətsizləşməsinə və bu üzdən fərdin cəmiyyətdəki dəyişikliklərə təsir etmək bacarığına inamın azalmasına gətirib çıxarır.

Digər tərəfdən, respondentlər münaqişənin tənzimlənməsinin və "qarşı tərəf" – in nümayəndəsi ilə ünsiyyətin perspektivləri haqqında cavablarını formalaşdırarkən toplanmış məlumatlar cavablarda fərqlərin olduğunu göstərirdi. Bu fərqlər ondan asılı olurdu ki, həmin an respondentlər şəxsən ya öz adlarından danışırdılar, yaxud da öz sosial qrupları adından. Buna görə də, cavablarında fərdlər şəxsən özlərini daha tolerant və güzəştə açıq, ümumilikdə aid olduqları cəmiyyəti isə fərqli qəbul edirdilər.

«Biz ermənilərlə birgə gözəl yaşayırdıq. Nəyə görə yenidən birlikdə yaşamayaq? Vaxtları xatırlayıram ki, damlarımızı və evlərimizi əsasən erməni inşaatçılar təmir edirdilər. Onlar əksər hallarda "kirvə" (sünnət vaxtı uşağı əlində tutan "ata") olurdu. Kişilərimiz erməni qızlarla evlənirdilər. Ermənilər xeyirxah millətdir. Ermənistandakı sadə insanların heç bir günahı yoxdur».

# 4. Vəzifə və öhdəliklərin bölgüsü

> «Sülh – müharibəsiz və münaqişəsiz həyatdır, söhbət istər iki ölkənin münasibətlərindən getsin, istərsə də ailə daxilində»

Bu regionda sosial funksiya və məsuliyyət bölgüsündə konsensusun mövcudluğunu qeyd etmək olar. Yaradılmış sosial struktur çərçivəsində cəmiyyət münaqişənin idarə edilməsi və onun həlli üçün məsuliyyəti ayrı-ayrı vətəndaş qruplarına kifayət qədər effektiv həvalə edib.

## Gender və nəsil fərqləri

Baxmayaraq ki, respondentlərin fikrincə, münaqişədən cəmiyyətin bütün təbəqələri – xüsusilə uşaqlar, qadınlar, hərbçilər, aztəminatlılar və sərhədə yaxın bölgələrdə yaşayanlar əziyyət çəkir, münaqişə ilə bağlı məsuliyyət daha yaşlı kişilərin üzərinə düşür (halbuki Dağlıq Qarabağda bu məsuliyyət ilk növbədə hamıya aid edilir). Bu cür ötürülmə çox çətin və həlli olmayan kimi görünən problemin həlli üçün məsuliyyətdən imtinaya meyilliyi də göstərə bilər. Bununla belə, bu cür ötürülmə  yanaşması həm də cəlbolunma, vəziyyətə nəzarət hissinin qorunması istəyini əks etdirir ki, sanki cəmiyyət qeyri-normal şəraitdə "normal" fəaliyyət göstərməyə qadirdir. Bu fenomen psixoloji adaptasiyanın ictimai və ola bilsin ki, ənənəvi mexanizmlərinin fəal işlədiyini əks etdirir.

Yaş, sosial sinif, seksual orientasiya, ailə vəziyyəti, etnik və ya dini mənsubiyyət kimi şəxsiyyətin identikliyinin müxtəlif aspektləri arasında mürəkkəb əlaqələr sistemini əks etdirən gender məsələlərinin tədqiqi xüsusi metodologiyanın tətbiqi ilə kompleks yanaşma tələb edir və buna görə də, bu tədqiqatın çərçivələrindən kənara çıxır. Buna baxmayaraq, güman etmək olar ki, münaqişənin davamlı xarakteri gender rollarının sərt patriarxal modellərinin dayanıqlığına şərait yaradır ki, bunların çərçivəsində qadınlara, misal üçün, uşaqların tərbiyəsi və onlara və kişilərə qulluq, o cümlədən münaqişəyə aid məsələlərdə bütün aspektləri ilə dəstəklənməsi funksiyaları düşür. Müəyyən mənada elə bu səbəb üzündən bəzi tədqiqatçılar qadınların sorğuda iştiraka  cəlb edilməsində müəyyən çətinliklərlə qarşılaşıblar (ilk növbədə, bu, Azərbaycan ərazisində yaşayan gənc qadınlara aiddir).

Yaşlı nəsil münaqişəyə görə məsuliyyətin daha gənc nəslə ötürülməsinə hazır olmayıb. Bunu yaşlı nəslin uzun illər ərzində münaqişəyə cəlb olunması, daha gənc insanları bundan qorumaq istəyi, yaxud gənc nəslin bu problemi həll etməyə qadir olmasına inamın olmaması ilə izah etmək olar. Dağlıq Qarabağ bu məsələlərdə də müstəsna yer tutur: orada respondentlər qeyd ediblər ki, 2016-cı ilin aprelində gənc nəsil döyüş təcrübəsi qazanıb və bu proses münaqişəyə görə məsuliyyətin üzərinə götürülməsi ilə müşayiət olunur ki, bu da yaş amilini daha az əhəmiyyətli edib.

Əlavə olaraq qeyd etmək lazımdır ki, hazırda böyük bir gənc nəsil formalaşıb ki, onlar "o biri tərəf"-lə hər hansı qarşılıqlı münasibət və birgə yaşayış təcrübəsi olmayan şəraitdə böyüyüblər. Bu, gerçəkliyin qəbul olunmasında təhriflər, stereotiplərin yaranması və emosiyaların idarə olunması üçün zəngin zəmin yaradır. Baxmayaraq ki, gənclik (Dağlıq Qarabağ istisna olmaqla) özünü münaqişədən kənarda nəzərdən keçirir və daha tərəqqipərvər nəsil hesab edir, bu onu heç də sülhsevər etmir. Tam əksinə, bu nəslin nümayəndələrinin çoxu bildirib ki, müharibə başlayarsa, əllərinə silah almağa hazırdırlar.



(© JAMnews/Teymur Zahidoglu

# Mərkəzlə əyalət arasındakı fərq

Münaqişənin dəyərləndirilməsində və dərk edilməsində fərqlər yalnız «fərd/qrup» və «gənclər/yaşlılar» qrupları arasında deyil, cəmiyyətlərin öz daxilində müxtəlif sosial yarımqruplar arasında da mövcuddur ki, bu da funksiya və məsuliyyətin analoji bölünməsi ilə müşayiət edilir. Paytaxt şəhərin sakinləri rayonların əhalisinin necə yaşaması və hansı keyfiyyətə malik olması haqqında tam dəqiq təsəvvürə malik olduğunu düşünür. Onlar birmənalı olaraq cəbhə xəttinə yaxın yaşayan vətəndaşların vətənpərvərlik səviyyəsini diktə edir və başlarının üstünü güllə alarkən sakitcə öz işləri ilə məşğul olmalarını bildirirlər. Belə vəziyyətdə həmçinin məsuliyyətin ötürülməsi elementi mövcuddur – belə ki, təmas xəttindən uzaqda yaşayan əhali bu yolla münaqişə ilə əlaqəsini qorumağa çalışır ki, öz vətənpərvərlik borcunu gerçəkləşdirsin və faydalılığını hiss etsin.

Bu baxış bucağından Ermənistanla Azərbaycan arasında fərq çox deyil: insanlar cəbhə xəttindən nə qədər uzaqda yaşayırlarsa, vətənpərvərlikdən bir o qədər ucadan danışırlar. Münaqişəyə baxışlarda analoji fərq bir tərəfdən Ermənistanda və Dağlıq Qarabağda yaşayan respondentlərdə, digər tərəfdən isə Bakı və cəbhəyanı zona sakinləri arasında qeyd olunub. Lakin Dağlıq Qarabağın daxilində bu məsələ üzrə belə ictimai təbəqələşmə müəyyən edilməyib.

«Sərhəddə yaşayan kəndlilərdən soruşsanız, onlar müharibənin qəti əleyhinədirlər, [paytaxtda] və ya digər şəhərlərdə gənclərdən soruşsanız, onlar müharibə istəyir, kəndlərdə yaşayanlar onların vecinə də deyil, sadəcə, vuruşmaq olsun...»

«Sülh bərqərar olana kimi mən öz həyatımı yaşamaqda davam edəcəyəm. Təmas zonasında, yaxud sərhəddə yaşayanlar ilk növbədə özlərini ehtiyatlı aparmalıdırlar. Bundan sonra isə həmişə yaşadıqları kimi yaşamalıdırlar. [...] ...və deyirlər: «Biz heç nədən qorxmuruq. Ömrümüzün sonuna kimi burada qalacağıq».

«Mübahisəli və sərhədyanı ərazilərdə insanlar, təəssüf ki, alışmalıdırlar ki, onlara atəş açırlar, – məncə, artıq öyrəşiblər də».

«Hər halda cəmiyyətimizdə vacib yerləri tutmuş məcburi koçkünlər və qaçqınlar var. O vaxta kimi [... onlar] heç vaxt Bakı cəmiyyətinin həyatında əhəmiyyətli rol oynamırdılar, indi isə onlar [...], misal üçün, yerlilərdən daha vacib rola malikdirlər. [...] Onlar olmasaydı, cəmiyyət başqa cür olardı».

«Qarabağa getmək istəyən çox az adam görmüşəm [Bakılı danışır]. Hətta qocaların arasında. Üstəgəl, onlar öyrəşiblər. Əgər qayıtsalar, hə, əziyyət çəkəcəklər. Çünki Bakıda və Ağdamda həyat eyni şey deyil».

«İstərdik ki, bütün yerlilərin bizi lağa qoyduğu "qaçqın" ayamasından canımız qurtarsın».

## Qəbul edən tərəflə yer dəyişən şəxslər arasında fərq

Hər üç cəmiyyətdə münaqişə barədə müzakirələrdən müharibə nəticəsində ən çox əziyyət çəkmiş şəxsləri qaçqınları və DYŞ-ləri xaric etmək tendensiyası müşahidə olunur. Bir sıra səbəblər üzündən həm hakimiyyət, həm də cəmiyyət özü bu qrupları marginallaşdırmağa və onların müstəqil aktyorlara çevrilməsinin qarşısını almağa çalışır. Onlara bu qrupları münaqişə və daxili siyasi məsələlərin həlli ilə bağlı dövlət maraqlarının daşıyıcısı kimi görmək sərfəlidir.

Əhalinin əksər hissəsi qaçqınlar və DYŞ nümayəndələrini cəmiyyətin bütün problemlərini onların uzərinə yıxmaq və lazım olduqda özlərini onlarla müqayisə etmək üçün istifadə etdikləri bir qrup kimi görürlər. Bundan əlavə, onları tez-tez iqtisadi miqrantlarla dəyişik salırlar ki, bu da bir çox cəmiyyətlərdə yayılmış problem kimi dehumanizasiyanı artırır.

DYŞ və qaçqınların bu cür sosial izolyasiyaya cavab reaksiyası dəyişkindir və heç də həmişə "rəsmi" xətlə üst-üstə düşmür. Müharibənin travmatik təcrübəsi, öyrəşdikləri mühitdən ayrı keçirilmiş illər, adi sosial funksiyaların və dəstəyin itirilməsi bu qrupun bir hissəsinin ona vurulmuş damğa ilə barışması ilə nəticələnib.

«Hamı Ali baş komandanın əmrini gözləyir. Əmr etsə, hamı döyüşməyə gedəcək. Var qüvvə ilə yaşamaq lazımdır. Əlbəttə, insanlar təhlükədə yaşayırlar. Onların dinc yaşamaq imkanı yoxdur. Əsas odur ki, hakimiyyət onları dəstəkləsin. Biz isə hökumətimizi dəstəkləməliyik».

«Əlbəttə ki, sadə insan və xalq əziyyət çəkir, oliqarxlara isə, düşünürəm ki, ölkəmizdə az şey təsir edir. Onların vecinə deyil».

## Hakimiyyətin və üçüncü tərəflərin rolu

Ötən çətin illərdə insanların düşüncəsində belə bir fikir formalaşıb ki, onların münaqişəsi həddən artıq miqyaslıdır və sülh yolu ilə həll oluna bilməz, buna görə də, çoxları bu vəziyyətdə özlərinin nəyisə dəyişmək imkanlarının olmaması ilə barışıb, köməksizliklərini qəbul ediblər. Nəticədə, onlar məsuliyyəti üçüncü tərəfə ötürməyə üstünlük verirlər. Respondentlərin əksəriyyəti bizə bildirib ki, onların fikrincə, münaqişənin tənzimlənməsi ilə rəsmi hakimiyyət və ATƏT-in Minsk Qrupu, ABŞ və Rusiya kimi üçüncü tərəfin nümayəndələri məşğul olmalıdırlar.

Lakin paradoks ondan ibarətdir ki, insanlar bu xarici aktyorlara etimad göstərmir. Alınan cavablar, məsələn,

əsas xarici aktyor kimi qəbul edilən Rusiyaya aşağı etimad səviyyəsini nümayiş etdirir. Respondentlər onun moderator mövqeyinin münaqişə tərəflərinin silah təchizatçılığı ilə eyni zamanda baş verdiyini göstəriblər. Bundan əlavə, hər üç cəmiyyətdə respondentlər dolayı yolla sosial ədalətin bərqərar olmasının zəruriliyindən və korrupsiya məsələlərindən danışıldıqda öz hakimiyyətlərinə aşağı etimad səviyyəsi nümayiş etdiriblər. Hər üç cəmiyyətdə "nə hərb, nə sülh" vəziyyətinin adı çəkiləndə eyni cür cavab verərək bunun kimə faydalı ola biləcəyi haqqında suala cavab axtarıblar.

# 5. Münaqişə, sülh və güzəşt

«Qarabağ münaqişəsi ona görə xüsusi [narahatlıq] doğurur ki, məsələn, sosial şəbəkələrdə lenti oxuyanda anlayırsan ki, xaosun başlaması ilə sən heç nə edə bilmirsən. Heç nə - və bu qorxudur».

«Yeni nəsil başqa cür düşünür, hər şey daha sirli olub. Məsələn, bu parkın yaxınlığında avtobusu saxlayıb «Qarabağ bizimdir!», qışqırsan, xalq qaçaraq həmin sözləri qışqıracaq. Sonra avtobusun qapısını açıb, «Gedək, Qarabağı alaq» desək, hamı birdən xatırlayacaq ki, uşağı bağçadan götürmək lazımdır və i.a.».

«Bizdə müharibə getmir, əksinə informasiya müharibəsi gedir. Bu müharibə təsir edir».

## Miflər və təbliğat

Hər üç tərəfi təmsil edən respondentlərin formalaşdırdığı cavablara görə, zaman ötdükcə münaqişə kontekstində güc anlayışı miflərlə örtülüb və utilitar xarakter qazanıb. Həmin cavablara əsasən, güc hakimiyyətlə pulun vəhdəti hesab olunur ki, bunlar münaqişəni yarada, onunla manipulyasiya edə və münaqişəni həll edə bilərlər. Bu cür qüvvəyə hakimiyyət, üçüncü tərəflər, biznes, diaspora, beynəlxalq qeyri-hökumət təşkilatları (BQHT), həmçinin digər pul və nüfuz ehtiyatlarına malik aktyorlar sahibdirlər.

Münaqişənin miqyası və onun sülh yolu ilə həlli imkanları mifləşdirilib. Respondentlərin əksəriyyəti münaqişəni nəhəng, sonsuz və müvafiq olaraq, mürəkkəb və sülh yolu ilə həll oluna bilməyən kimi qəbul edirlər. Həmin məntiqlə yalnız hərbi güc bu miqyasda fenomenin öhdəsindən gələ bilər. İnsanlarda sülh prosesinin imkanlarına ümid yoxdur, onların təsəvvüründə müharibənin gücü sülhün gücündən artıqdır.

Münaqişənin mifləşdirilməsinin daha bir cəhəti ondan ibarətdir ki, o, mütləq əhəmiyyətli və müəyyən qədər dəyərli bir məfhuma çevrilir. Bu, münaqişəyə görə artıq ödənilmiş və cəmiyyətlərin hələ də ödəməkdə olduğu qiymətin dərk edilməsinin toplanmış emosional yükü ilə şərtlənir. Burada qeyd etmək yerinə düşər ki, buna bir çox amillər, o cümlədən rəsmi hakimiyyətlərin ritorikası səbəb olur. Onlar münaqişəni həlii yolu olmayan bir amil kimi qələmə verirlər və bu bir çox respondentlərdə elə inam yaradır ki, bu münaqişənin həm daxili, həmdə xarici aktyorları qazanırlar.

Uzun illər ərzində bu cür dəyərli və vacib "nə hərb, nə sülh" fenomeninə və belə ehtiyata aidiyyəti hiss etmək istəyi tərəflərdə münaqişəyə hansısa alınıb satıla bilən əşya münasibəti formalaşdırıb.

Dövlət təbliğatına xüsusi etimadsızlıq məhz Azərbaycandakı respondentlərdə qeydə alınıb. Onlar KİV-in cidd-cəhdlə yaratdığı və formalaşdırdığı düşmən obrazını münaqişəni asan qızışdıra biləcək amil kimi dəyərləndirirlər ki, indiki mərhələdə bu onun transformasiyası yollarının axtarışında ciddi əngələ çevrilir.

Rəyi soruşulanların çoxu narahatlıqlarını bildirdilər ki, bu cür təbliğat və qarşı tərəfə nifrət dili həm fərdi, həmdə ümumilikdə cəmiyyət miqyasında sonrakı nəsillərdə özünü göstərə bilər.

Bu müşahidələrdən çıxış edərək güman etmək olar ki, Azərbaycan cəmiyyətinin identikliyinin axtarışı və təşəkkülü prosesi qismən, həm də bu cür təbliğatın fəallaşması hesabına baş verir. Bu o deməkdir ki, sülh yolu ilə tənzimlənmənin axtarışında ictimai potensial və fərdi səslər zaman ötdükcə daha zəifləyə və öz ölkəsində populyar olmaya bilər və bu isə ciddi təhlükə törədir.



© JAMnews/Knar Babayan

Ermənistanda respondentlər təbliğatı problem kimi görməsələr də, buna baxmayaraq, həm Ermənistanda, həm də Dağlıq Qarabağda dolayı yolla verilmiş suallara respondentlər cavablarını ifadə olunmuş milliyyətçi ritorika kontekstində formalaşdıraraq, öz baxışlarını birbaşa milli identikliklə bağlayırdılar. Qarşı tərəfə nisbətən daha az halda düşmən obrazının təbliğatla yaradılmasını xatırlasalar da, bu heç də o demək deyil ki, onların mövqeləri daha çevikliyi ilə fərqlənir və güzəşt axtarışında daha çox açıqdırlar.

Ehtimal etmək olar ki, rəyi soruşulanlar status-kvonun saxlanılmasını "gerçəkləşdirilmiş ədalət" və şəxsi milli identikliklərinin sonrakı təsdiqi kimi nəzərdən keçirirlər.

«İnanıram ki, hətta sadəcə öz biliklərimi və sülh yolunda səylərimi daha gənc nəsillə paylaşaraq nəyisə dəyişə bilərəm, [...] nifrət dilindən və bütün neqativdən qurtulmaq, ümid edirəm ki, nə vaxtsa münaqişənin sülh yolu ilə tənzimlənməsinə kömək edəcək».

## Tələbatların yalançı təminatı

Sülh və hərb arasında uzun illər münaqişə həm hakimiyyətlər, həm cəmiyyətlər, həm də fərdi səviyyədə adət halını alıb. Hər üç cəmiyyətin nümayəndələri fikir bildirib ki, müharibə təhlükəsizlik, identiklik, azadlıq və s. kimi əsas tələbatları ödəyə bilər.

Lakin nəzərə almaq lazımdır ki, silahlı münaqişə bu tələbatların yalançı təminatçısıdır, çünki əslində o istisnasız olaraq bütün insani tələbatların təminatı imkanlarını dağıdır.

«Müharibə olmasaydı, düşünürəm ki, məndə həyatda bu cür köməyim olmuş və indi də köməyim olan mübarizə hissi olmazdı. Uşaqlıqdan öyrəşmişəm ki, bizdə müharibədir, heç vaxt müharibədən qorxmamışam, həmişə bilmişəm ki, qalib gələcəyik».

«Bizdə qiymətlər qalxan kimi sərhəddə münaqişə qızışır – diqqət ora yayındırılır. Dərhal düşünürsən: yaxşısı budur bir tikə çörəyim olsun, amma müharibə olmasın».

«Şəhərə çıxıb gözəl evləri və yaxşı geyinmiş adamları görəndə və bunları öz həyatınla müqayisə edəndə, dərhal bu adamlarda olanları istəyirsən. Bu çox çətindir. Bütün bunlar haqqında düşünəndə tez-tez fiziki olaraq başım ağrımağa başlayır».

«Biz sülh istəyirik. Ədalətli sülh istəyirik. Ədalətsiz sülh bizə lazım deyil».

«Biz ordumuzun arxasındayıq, tam dəyərlə həyatla yaşamalı və həmişə xatırlamalıyıq ki, ordu olmasaydı, faciə baş verərdi».

# Sülh və güzəşt terminologiyası

Hər üç cəmiyyət "təki müharibə olmasın" anlamına çox nəhəng qiymət ödəməyə hazır kimi görünür (bu Azərbaycana daha az aiddir).

Bu cür vəziyyət neqativ sülhün konservasiyasına şərait yaradır. Halbuki hakimiyyətlər müharibəyə hazırlıq görürlər. Rəsmi ritorika bunu sülhün qorunması üçün ödənilməsi lazım olan qiymət adlandırır. Cəmiyyətlərdə müharibənin yaxınlaşması və qaçınılmazlığının dərki, müvafiq olaraq qorxu yaradır. Bu vəziyyətdən manipulyator kimi xalqın diqqətinin iqtisadi problemlərdən, silahlanmaya çəkilən xərclərdən doğan narazılıqdan, tam demokratik cəmiyyətlərin fəaliyyətinin təmin edilməməsindən yayındırmaq üçün bacarıqla istifadə olunur. Hər üç cəmiyyətin daxilində "sülh" və "güzəşt" kimi baza terminlərin yozulmasında fərqlər var.

Hər üç cəmiyyətdə sülh, münaqişə, güzəşt və s. kimi terminlərin qavranmasında ziddiyyətlər mövcuddur.

Hamı bu sözlərə özünün dərk etdiyi mənanı verir və təsəvvür etmir ki, onlar başqaları üçün hansı anlamı verir və bu zaman tez-tez öz anlam səviyyəsini əsas götürərək həmin anlayışlara hazırlıqlarını ifadə edirlər. Bəzən ittihamlar səslənir ki, başqaları onların sülh və güzəşt kimi bəyan etdiklərinə hazır deyillər. Bütün bunlar, şübhəsiz ki, sülh yolu ilə tənzimlənmə prosesinə ciddi təsir göstərir.

Bir çox erməni respondentlər hesab edirdilər ki, sülh artıq bərqərar olub və bu zaman öz qələbələrini əsas kimi götürürlər. Onların fikrincə, nəyisə müzakirə etməyin artıq mənası yoxdur, halbuki azərbaycanlı respondentlər hazırkı vəziyyəti onlar üçün nəhəng emosional yük olan, incidən məğlubiyyət kimi qiymətləndirirlər.

Əksər respondentlər sülhə olan ehtiyaclarını dilə gətirirlər, lakin qeyd etmək lazımdır ki, bu zaman Dağlıq Qarabağ və Ermənistandakı respondentlər sabitliyi, azərbaycanlı respondentlər isə sülh dedikdə ədaləti başa düşürlər. Qarabağ və erməni cavabların ifadə tərzi belə deməyə imkan verir ki, onlar 1915-ci il hadisələrindən sonra axtardıqları ədaləti tapıblar. Bununla birlikdə, azərbaycanlı respondentlərin düşüncəsində sabitlik yalnız o zaman olacaq ki, ədalət bərpa olunsun, bu isə ərazilərin qayıtması ilə mümkündür.

# 6. Tövsiyələr

Bu tövsiyələr Dağlıq Qarabağ münaqişəsi zamanı ayrı düşmüş cəmiyyətlər arasında qarşılıqlı anlaşmanın əldə edilməsinə yönəldilmiş sülh danışıqlarının iştirakçıları, siyasi dairələrin nümayəndələri, qrantverənlər, yerli və xarici ictimai fəallara kömək məqsədilə hazırlanıb.

## İdentiklik məsələləri üzərində iş

- Şəxsi identikliyinin dərki mürəkkəb və ağrılı prosesdir. Buna baxmayaraq, **insanların və cəmiyyətin tənqidi düşüncəsinin inkişafına motivasiyası, ələlxüsus identiklik konsepsiyasının hansı yollarla manipulyasiya obyektinə çevrilməsinin tədqiqi** fərdlərə və cəmiyyətə imkan verəcək ki, öz reallığından çıxış etsin, özünü münaqişədən ayırsın, özünə, münaqişəyə kənardan baxsın və bu böyük manipulyasiya sistemində yerini anlasın. Həm fərd, həm də cəmiyyət miqyasında identiklikdə hər hansı dəyişikliyi etmək üçün bunu başqa nə iləsə əvəzləmək lazımdır.

- Toplu identikliyin bütün aspektləri üzrə **alternativ tarixi diskursun hazırlanması**, cəmiyyətlərə "müharibə qəhrəmanları" əvəzinə "sülh qəhrəmanları" obrazının dəyərliliyinin aşılanması pozitiv rol modeli və etnosentrik tendensiyalara alternativ ola bilərdi.

- "Öyrədilmiş köməksizlik" sindromunun aradan qaldırılması üçün passivliyin çıxmaza sürükləməsinin dərk edilməsi prosesi zəruridir və anlaşılmalıdır ki, insanların əvəzinə qərarların verilməsi onların gündəlik həyatına bilavasitə təsirini göstərir. **Ən müxtəlif səviyyələrdə vətəndaş fəallığını yüksəltmək gərəkdir**, bu zaman yerli xüsusiyyətlər və risk amilləri nəzərə alınmalıdır. Belə bir anlayış zəruridir ki, fəal vətəndaş mövqeyi müstəsna olaraq QHT-də iş demək deyil. Bununla birlikdə şəxsi mövqeyin əhəmiyyəti və vacibliyi vurğulanmalıdır. Bu dəyişikliklər ona gətirib çıxaracaq ki, insanlar öz vətəndaş təşəbbüslərini daha sadə dilə gətirəcək, sonra isə təcrübədə gerçəkləşdirməyə başlayacaqlar və onlara ölkələrinin, yaxud digər sosial qrupun diktə etdiklərindən uzalaşacaqlar. Fərdi səviyyədə dəyişikliklər həm böyük qrupların, həm də münaqişə tərəflərinin transformasiyasına kömək edə bilər.

## Müəyyən məqsədli qruplarla iş

- Münaqişənin sülh yolu ilə tənzimlənməsinə daha böyük hazırlığı ilk növbədə onun ən çox təsir göstərdiyi insanlar nümayiş etdiriblər – bunlar atəşkəs xətti boyunca yerləşən yaşayış məntəqələrinin sakinləri, ölümü və dağıntıları öz gözləri ilə görmüş hərbi əməliyyat iştirakçıları (həkimlər, keçmiş döyüşçülər), həmçinin çağırış yaşlı gənc kişilərdir. Onların çoxu belə fikir bildiriblər ki, digər tərəfin nümayəndələri ilə görüşmək istəyirlər və vasitəçi kimi öz xidmətlərini təklif ediblər. **Cəmiyyətlərdə artıq mövcud olan sülhməramlı potensialdan istifadə etmək lazımdır və bu işə bilavasitə müharibə və digər tərəfin insanları ilə yanaşı yaşayış təcrübəsi olan adamları cəlb etmək lazımdır**. Bu insanlar münaqişə haqqında, bir-biriləri barədə stereotipləri dağıtmaq və sülhün bərqərar olunmasına yönəldilmiş səyləri inkişaf etdirmək üçün əməli addımlar atmağa qadirdirlər.

- **Münaqişənin dərk edilməsində müxtəlif gender və nəsil fərqlərini nəzərə almaq lazımdır ki**, bununla cəmiyyətlərin daxilində və müəyyən sosial qruplarda münaqişənin "kimə aid olması"nın yozumlarının mövcudluğu etiraf edilməlidir. Azərbaycanda münaqişənin gerçəkliklərindən ayrı düşmüş gənc nəsillə və Dağlıq Qarabağda artıq hərbi əməliyyatlarda iştirak etmiş onların həmyaşıdları ilə müxtəlif formatlı

iş axtarışı labüddür. Gənclərdə iş zamanı şablon yanaşmalar burada özünü doğrultmaya bilər. Hər bir cəmiyyətin daxilində müxtəlif nəsillərin nümayəndələri arasında dialoqa zərurət var ki, bu müharibədən keçmiş və bu cür təcrübəsi olmayanları bir araya gətirə bilər. Bu formatda qazanılmış iş təcrübəsi müxtəlif qruplar və münaqişə tərəfləri arasında dialoqa transformasiya oluna bilər.

- **Əhalinin vətəndaş fəallığını yüksəltmək üçün stereotiplərin dağıdılması və imkanların inkişafı səylərini bir tərəfdən qəbul edən cəmiyyətlər, digər tərəfdən isə qaçqınlar və DYŞ ilə paralel iş vasitəsilə cəmləşdirmək lazımdır.** Adətən, qaçqınları və DYŞ-ləri ona hazırlayırlar ki, onlar evlərinə qayıdacaqlarını və xoşbəxt yaşayacaqlarını gözləsinlər. Onların ehtiyaclarını müzakirə etmək, can atdıqları məqsədləri və subyektivlik hisslərinin inkişafını fokuslaşdırmaq zamanı yetişib. Qəbul edən tərəflərlə işi gəlmələr barəsində münasibət stereotiplərinin qavranılması və onların əvvəlki yaşayış yerlərinə qaytarılması üzrə rəsmi planların gerçəkləşdirilməsinin münaqişənin yenidən qızışması riski ilə müşayiət edilməsini aşılamaq lazımdır. Həmçinin – həmin insanların arzularının real mənzərəsini nümayiş etdirməklə, əvvəlki evlərindən uzaqda həyatlarının üçüncü dekadasında bu və digər tərəfdə insanların fərdi planlarının qavranılmasının yaxınlaşdırılması ilə cəmiyyətlərin "onlar qayıdarsa" qorxusu ilə də işləmək lazımdır.

## Diskurs üzərində iş

- Dehumanizasiya anlayışı üzərində işdə fokusu müharibə yükünü öz üzərinə götürmüş və həmin yükün özünün bir hissəsinə çevirmiş insana qaytarmaq lazımdır. Cəmiyyətlərdə insana, onun hisslərinə, düşüncələrinə, qorxularına, ümidlərinə müraciət olunarsa, insanın həyat hekayəsi və dəyəri aşkar nümayış olunarsa, yalnız bu zaman onun fikirlərinin və hərkətlərinin vacibliyinin dərk olunması prosesi reallaşar. **Açıq media layihələri unikal şəxsi hekayələrin və empatiyanın imkişafının yayılması üçün meydançanın yaradılması şərait yarada bilər.** Bu cür yanaşma həm rəqibin humanizasiyasına, həm də həmvətənlərin humanizasiyasına nail ola bilər ki, bu da sonradan həmin cəmiyyətlərin daxilində sülhməramlı təşəbbüslərin yaranması üçün şəraitin yaradılmasına gətirib çıxarar.

- **İnsanarı onların hər birinin münaqişə üçün ödədiyi qiyməti (iqtisadi mənada) dərk etməsinə motivasiya etmək üçün təcrübi arqumentlərin hazırlanmasına səy göstərmək lazımdır.** Əgər insanlar anlamağa başlasalar ki, hər şəxs, hər ailə sülhə görə deyil, münaqişəyə görə ödəniş edir, bu münaqişənin özünün dinamikasını dəyişməyə kömək edər. Münaqişədə hər bir insan həyatının dəyəri və unikallığı dərk edilərək qəbul olunarsa, bu onun həlli perspektivini stimullaşdıracaq.

- Bildirmək olar ki, respondentlərin düşmən obrazının yaradılması ilə vurulan zərərə görə ifadə etdikləri qayğı özü özlüyündə yaranmış vəziyyətdən çıxışın axtarılmasına yönəlmiş praktiki istiqamətlərin formalaşdırılması üçün addıma çevrilir. İnsanlar dərk etsələr ki, nifrətin və düşmən obrazının təbliğatı gənc nəslə və cəmiyyətə hansı ciddi təhlükəni yaradır və milli identiklik konsepsiyasına necə təsir göstərir, bu çox müsbət effekt verə bilər. Hər şeydən əlavə, əldə olunan məlumatlar[1] onu göstərir ki, **tənqidi düşüncə vərdişləri vətəndaşların təbliğata qarşı immunitetini yüksəldə bilər**. Eyni zamanda, Azərbaycan hakimiyyətinin və cəmiyyətinin differensiasiyası, onlar arasında təbliğat məsələlərində səlis işləmək lazımdır. Bu, təbliğata müqavimət göstərən və münaqişənin sülh yolu ilə həlli ideyasını dəstəkləyən qüvvələrin möhkəmlənməsinə kömək edər.

1 H. Mueller, The economic cost of conflict, IGC working paper, pp. 8–12, 2013, http://www.iae.csic.es/investigatorsMaterial/a152611094820archivoPdf72447.pdf; M.M. bin Mohammad Aslam, Threat of Daesh in universities: Malaysia's experience, Counter Terrorist Trends and Analyses, Vol. 9, No. 4, 2017, pp. 13–17.



© JAMnews

# Müxtəlif dialoq formalarının inkişafı üzrə iş

## Cəmiyyətlər arasında dialoq

- Bütün cəmiyyətlər güc məsələsini qaldırarkən elə təəssürat yaradırlar ki, sankı münaqişənin idarə edilməsi az qala sehrli təsirə malik bir anlayışdır. Bu mənada həmin anlayışı daha konkret və spesifik tərkib hissələrinə bölmək və münaqişənin analizi vasitəsilə hər bir şəxsin bu gücün müəyyən hissəsini öz üzərinə götürərək ondan istifadə etməyinin dərki faydalı olardı. Faktiki olaraq bu vətəndaş cəmiyyətinin, lakin QHT-dən fərqli olaraq bu sözün daha geniş mənasında inkişafı deməkdir. Münaqişənin nəhəngliyinin dərki zamanı, realistik görünə biləcək bu cür qəbul oluna biləcək həlli yollarına yaxınlaşmaq çətindir. Başlanğıc nöqtələrindən biri kimi insanlar üçün gündəlik həyatda lazım olan anlayışların ayırd edilməsi ola bilərdi. Başqa sözlə, real nəticəyə gətirib çıxaran kişik şeylərdən başlamaq olar. Buna misal olaraq insanların gündəlik təhlükəsizliyini və sərhəddə yaşayanların həyat şəraitinin yaxşılaşdırılmasını, azad hərəkət imkanlarını və s. göstərmək olar. **Böyük siyasi qərarların başlaması üçün humanitar qərarlar və hərəkətlər lazımdır**. Bu elə fon yaratmağa imkan verəcək ki, bu zaman cəmiyyətlər sülhü həm dəyər, həm də alət kimi qəbul edəcəklər. Bu cür gündəlik sülh naminə, əsas insani tələbatların ödənilməsi üçün iş prosesi tədricən münaqişənin həlli üsulu kimi müharibəyə hazırlığı sülhə hazırlıqla əvəz edəcək.

- Respondentlərin fikrincə, ermənilərі azərbaycanlılarla birləşdirən xüsusiyyətlərdən biri ticarət bacarığıdır. Bu isə dialoq aparmaq qabiliyyəti, çeviklik göstərmək, qarşındakını eşitmək bacarığıdır. Bu resursdan elə istifadə olunur ki, hazırda o, daha çox güzəştin tapılması yollarını əngəlləyir. Lakin pozitiv sülhün hamı və hər kəs üçün dəyərinin dərki üzərində iş zamanı cəmiyyətlərdə bu resurs, münaqişənin həlli yollarının axtarışının qiymətli mexanizmi ola bilər. **Ticarət, gəlir, ticarətin potensial imkanları, hamı və ayrılıqda hər kəs üçün gəlir haqqında polemikanı inkişaf etdirmək və arzu olunan gələcəyin reallaşmasının mümkünlüyünü göstərmək lazımdır**. Bu gün real görünməsə belə, cəmiyyətlərdə uzaq və hətta abstrakt sülh konsepsiyasının olması vacibdir. Bu hərbi ritorikaya alternativləri inkişaf etdirməyə kömək edər.

- Hər üç cəmiyyət üçün eyni dərəcədə ifadə olunmuş bir növ ictimai tələbat olan ədalət axtarışı mümkün ədalətli sülhün qavranmasının əldə edilməsinin müxanizmi kimi istifadə oluna bilər ki, bu da münaqişənin mövcudluğunun müxtəlif səviyyələrdə ədalətsizliyin yaranmasına gətirib çıxarmasını dərk etməklə əldə oluna bilər. **Sosial ədalət və onun münaqişə ilə əlaqələri mövzusunda ictimai müzakirələr həm cəmiyyətlərin daxilində, həm də bütün cəmiyyətlər miqyasında müzakirələrin təşkili üçün birləşdirici amil kimi istifadə oluna bilər**.

## Cəmiyyətlər daxilində dialoq

- **İnsanların qarşı tərəfin “sülh” və “güzəşt” kimi terminləri necə qəbul etməsini anlamaları çox əhəmiyyətli görünür**. Bu ayrılmış cəmiyyətlərin daxilindəki müxtəlif qruplar arasında dialoqu stimullaşdıra və həmin terminlərin manipulyasiya potensialını azalda bilər. Respondentlərin böyük əsəriyyəti bildirib ki, sülh istəyirlər. Bu arzu ayrı-ayrı fərdlər və cəmiyyət daxilində sülhün əldə olunan kimi görünməsi və onun uzunmüddətli perspektivdə qorunub saxlanması üçün hansı dəyişikliklərin baş verməsi haqqında dialoqun başlaması üçün başlanğıc nöqtəsi ola bilər. Bu cür dialoq neqativ və pozitiv sülh arasında fərqlərin qavranmasını və insanların əslində nə istədiyini stimullaşdırmağa kömək edər.

- **Sülh təşəbbüslərinin dəstəklənməsi üçün münaqişəyə cəlb olunmuş bütün cəmiyyətlər tərəfindən güzəşt konsepsiyasının əsas dəyər və mexanizm kimi daha dərindən dərk edilməsinə nail olmaq lazımdır.** Hazırda hər bir cəmiyyət tərəfindən güzəşt qarşı tərəfdən gözlənilən bir şey kimi anlaşılmaqdadır. Lakin tərəflər həm fərd, həm də bütün cəmiyyət səviyyəsində hansı güzəştlərə getməyə hazır olduqlarını dərk etmələri üçün kifayət qədər səy göstərmirlər. Ən müxtəlif səviyyələrdə - sıravi inanlardan tutmuş, siyasi qərarları qəbul edənlərə qədər - bütün maraqlı tərəfləri cəlb etməklə güzəşt perspektivlərinin axtarışı üçün potensial imkanların ətraflı analizi gərəkdir. Bu cür proses iştirakçıların cəlb edilməsi üçün yeni alətlərin axtarışını, həmçinin dialoq mövzusunun özünün “güzəşt” konseptindən çıxıb cəmiyyətlər tərəfindən daha çox qəbul edilən anlayışlarla əvəz edilməsi ilə yenidən formalaşdırılmasını tələb edəcək.

**International Alert**
346 Clapham Road, London, SW9 9AP, United Kingdom
**Tel** +44 (0)20 7627 6800 **Fax** +44 (0)20 7627 6900
info@international-alert.org
**www.international-alert.org**

Registered charity no. 327553
ISBN: 978-1-911080-98-5

/InternationalAlert @intalert